RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 157 (8473) ÇƏRŞƏNBƏ, 12 avqust 2020-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# Azərbaycanın neft-qaz strategiyası möhkəm dayaqlara əsaslanır

## Prezident İlham ƏLİYEV: "Əminəm ki, növbəti illərdə "Qarabağ" və digər yataqlar uğurla istismar ediləcək və ölkəmizə böyük fayda verəcək"

Azərbaycan əsrlərdir yerin təkindən və artıq 70 ildən çoxdur dənizin dibindən neft hasil edir. Zaman-zaman ölkəmizin qaz yataqlarının da sayı artıb və indi bizim dünya şöhrətli "Şahdəniz"imiz var. Nə xoş ki, təbiətin öz səxavətli əli ilə yurdumza bəxş etdiyi bu böyük sərvət tükənmir. Son illərdə kəşf olunmuş yeni karbohidrogen yataqlarının bir hissəsi Azərbaycana gəlir gətirir, digərləri isə işlənmə mərhələsindədir və gələcək üçün böyük potensial vəd edir. Bu yataqlardan biri doğma Qarabağımızın adını daşıyan "Qarabağ" yatağıdır.

"Qarabağ" yatağında quraşdırılacaq stasionar dəniz özülünün dayaq blokunun inşası uğurla başa çatıb və bu il avqustun 10-da qurğunun Xəzərə yola salınmasında Prezident İlham Əliyevin iştirak etməsi hadisənin önəminə bir daha diqqət çəkir.

Xatırladaq ki, "Qarabağ" Azərbaycanın ən zəngin karbohidrogen yataqlarından biridir. Bu yataq Xəzər dənizinin cənub hövzəsində, Abşeron arxipelaqının şimal hissəsində yerləşir. Yataqda 1997-1998-ci illərdə Xəzər Beynəlxalq Neft Şirkəti konsorsiumu tərəfindən qazma işləri aparılıb. O vaxt burada 3 quyu qazılıb. Lakin xarici tərəfdaşlar yatağın səmərəliliyinə inanmayıb və nəticədə kontrakta xitam verilib. Beləliklə, həmin tərəfdaşlar "Qarabağ"ı tərk ediblər. Azərbaycan mütəxəssisləri isə yatağın böyük potensialı barədə öz fikirlərində israrlı idilər və zaman bunu sübuta yetirdi.

2020-ci ildə SOCAR və Norveçin "Equinor" (keçmiş "Statoyl") şirkətinin birgə qazma əməliyyatı vasitəsilə "Qarabağ" məhz neft yatağı kimi kəşf edildi. Yataq 60 milyon ton neft ehtiyatına malikdir. Burada 6 neft, 3 qaz və 3 suvurma quyusunun qazılması nəzərdə tutulur.

"Qarabağ" yatağının istismara verilməsi istiqamətində görülən işlərin başlanğıcının belə uğurlu olması Azərbaycanın neft-qaz strategiyasının müvəffəqiyyətlə irəli getdiyinin əyani təsdiqidir.

"Qarabağ" layihəsi üzrə hazırlanmış dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) 100 faiz Azərbaycana - SOCAR-a məxsus "BOS Şelf" şirkəti tərəfindən iki il ərzində inşa edilib. Bu qurğu SOCAR-ın tarixində həm ölçülərinə, həm də çəkisinə görə hazırlanan ən böyük sualtı konstruksiyadır. 16 min ton ağırlığında olan qurğu "STB-1" daşıma barjına yüklənəcək və Xəzərdəki daimi yerinə çatdırılacaq.

Dayaq blokunun hazırlanması prosesində mühüm amillərdən biri də onun məhz yerli mütəxəssislər tərəfindən inşa edilməsidir. Belə ki, qurğunun tikintisində çalışanların 95 faizi yerli mütəxəssislər olub.

Prezident İlham Əliyev dayaq bloku ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə görülmüş işləri yüksək dəyərləndirib: "Nəzərə alsaq ki, "Qarabağ" yatağının yerləşdiyi ərazi Xəzər dənizində çox dərin hissəyə aiddir, əlbəttə ki, belə nəhəng qurğunun tikintisinə böyük tələbat var idi. Onu da bildirməliyəm ki, "Qarabağ" yatağında suyun dərinliyi 180 metrdir və hesab edirəm ki, məhz buna görə sovet vaxtında bu yataqdan neft-qaz çıxarılmamışdır. Çünki sovet dövründə bizim belə texnologiyalarımız olmamışdır, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərin hissəsi də toxunulmaz qalmışdır, müstəqillik dövrü üçün qalmışdır. Əks təqdirdə quru yataqlarda olduğu kimi, dəniz yataqlarımız da tam boşaldılacaqdı və müstəqil Azərbaycanın inkişafı üçün enerji resursları qalmayacaqdı. Ona görə "Qarabağ" yatağının aşkarlanması və sonra yataqda işlərin görülməməsi, əlbəttə ki, müstəqil Azərbaycan üçün böyük hədiyyə olmuşdur. Məhz bu gün aparılan siyasət nəticəsində biz bu işləri görə bilirik. Odur ki, bu, texnoloji baxımdan, mühəndislik baxımından çox nəhəng və çox mürəkkəb bir konstruksiyadır. Şadam ki, bunu Azərbaycan mütəxəssisləri inşa ediblər.

Ardı 4-cü səh.

# Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin sentyabr ayında Azərbaycan xalqının igid övladı, İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun anadan olmasının 100 illiyi tamam olur.

Əhmədiyyə Cəbrayılov bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə çalınmasında böyük xidmətlər göstərmiş Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçmişdir. 1941-ci ildə müharibənin başlanması ilə ölkənin müdafiəsi üçün könüllü surətdə cəbhəyə yollanan Əhmədiyyə Cəbrayılov daha sonralar Fransa Müqavimət hərəkatında fəal iştirak etmişdir. Əhmədiyyə Cəbrayılovun yüksək bacarıqla həyata keçirdiyi çoxsaylı kəşfiyyat əməliyyatlarındakı misilsiz şücaətləri layiqincə qiymətləndirilmişdir. Fransa dövlətinin orden və medalları ilə təltif edilmiş həmvətənimizin, eyni zamanda Müqavimət hərəkatı iştirakçıları sırasında xatirəsi əbədiləşdirilmişdir. Əhmədiyyə Cəbrayılovun Vətənimizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə canını fəda edərək uca şəhidlik mərtəbəsinə yüksəlmiş oğlu Mikayıl Cəbrayılov Azərbaycanın ilk Milli qəhrəmanlarındandır.

Xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun igidlikləri işğal altındakı torpaqlarımızı hər an azad etməyə qadir olan Azərbaycan Ordusunun mətin əsgəri üçün fədakarlığın parlaq rəmzi, hünər və cəsarətin bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsində xüsusi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqının cəsur övladı Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2020-ci il*

# Masallı rayonunun Qızılağac kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Masallı rayonunun Qızılağac kəndində 528 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2020-ci il*

# İlham Əliyev qlobal böhran şəraitində də islahatlarını reallığa çevirir

## Prezidentin yenicə yaratdığı Azərbaycan İnvestisiya Holdinqi dövlət şirkətlərinin vahid prinsiplər əsasında idarə olunmasını təmin edəcək

Qlobal böhran səbəbindən yeni çağırışlarla üz-üzə qalan dünya ölkələri getdikcə daha böyük çətinliklərlə qarşılaşırlar. Hətta uzun illər ərzində güclü iqtisadiyyat formalaşdırmış inkişaf etmiş dövlətlər də böhran qarşısında aciz qalıblar.

Təbii ki, böhran dünyanın bir parçası olan Azərbaycandan da yan keçməyib və son altı ayda iqtisadiyyatımızdakı tənəzzül bunu bir daha təsdiqləyir. Ancaq dövlət bu böhrandan az itki ilə çıxmaq üçün mühüm antiböhran tədbirləri həyata keçirməkdədir. Əlbəttə ki, bu tədbirlər, ilk növbədə, ölkədəki makroiqtisadi sabitliyin qorunmasına xidmət edir.

Ardı 4-cü səh.

◆ Milli maraqlar naminə əməkdaşlıq

# İslahatlar Azərbaycanı regionun ən güclü dövlətinə çevirib

## Teyyub QƏNİOĞLU: "Azərbaycan Təkamül Partiyası islahatların müsbət nəticələrini görür və onları təqdir edir"

Respublikamızda həyata keçirilən islahatlar cəmiyyətin siyasi həyatında da yaxından hiss olunmaqdadır. Təsadüfi deyil ki, məhz bu məqam siyasi partiyalar tərəfindən təqdir olunur. Partiya sədrlərinin açıqlamalarında islahatların tərkib hissəsi olan bu prosesin artıq ilkin müsbət nəticələr verdiyi bildirilir. Mövzu ilə bağlı Azərbaycan Təkamül Partiyasının (ATP) sədri Teyyub Qənioğlu ilə söhbətləşdik.

### Yeni konfiqurasiyanın formalaşması zərurəti zamanın tələbidir

Azərbaycanın siyasi sistemində yeni konfiqurasiyanın formalaşması zərurətinin zamanın tələbi olduğunu deyən Teyyub Qənioğlunun sözlərinə görə, güclü dövlət siyasi sistemi təkmil, demokratik imicə malik, demokratikləşmə prosesini konseptual olaraq qəbul edən, insan hüquq və azadlıqlarının qorunmasını, mülkiyyət toxunulmazlığını prioritet sayan, qanunun aliliyini rəhbər, qanun pozuntularına qarşı barışmaz mövqe tutan, iqtidar-vətəndaş birliyinə nail olan dövlətdir: "Güclü dövlət həm də güclü müxalifəti olan dövlətdir. 2019-cu ilin əvvəllərindən başlayaraq bu istiqamətdə müəyyən addımlar atılmağa başlayıb. Hesab edirik ki, 2019-cu ilin dekabrında Prezident Administrasiyasının strukturunda Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təsis edilməsi bu istiqamətdə həyata keçirilən ən önəmli addımdır.

Ardı 4-cü səh.



# Yeni qaydalara uyğun təhlükəsiz alış-veriş imkanı yaradılıb

## İqtisadi fəaliyyəti sinxronlaşdırmaq üçün sanitar-epidemioloji tələblərə ciddi əməl edilməlidir

Dünyanın gündəmindən düşmək bilməyən yeni tip koronavirus yoluxma zəncirini artırmaqda davam edir. Dünyanın böyük ölkələrinin gördüyü tədbirlərə baxmayaraq, bəlanı cilovlamaq mümkün olmur.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Gebreyesus bununla bağlı dəyərləndirməsində bildirib ki, vəziyyət kritik həddə çatb. Bütün ölkələrin əhalisini yeni infeksiyanın yayılmasının qarşısını almağa səsləyən ÜST koronavirusla mübarizədə əldə edilən nəticələri isə "ümid cücərtisi" adlandırıb.

Bütün dünyanın gözlədiyi qurtuluş peyvəndi barədə məlumat verən T.Gebreyesus bildirib ki, koronavirus peyvəndi üçün universal çıxış yolunu təmin etmək məqsədilə 100 milyard dollardan çox vəsait tələb olunur. Dünya əhalisini peyvəndlə təmin etmək üçün qət etməli uzun yol var, bunun üçün çox pul lazımdır: "ÜST tələb olunan milyardlarla dolları maliyyələşdirmə yolunun 10 faizini keçib. Təkcə peyvəndlər üçün 100 milyard dollardan çox vəsait lazımdır. Bu, bütün ölkələrə lazım olan peyvəndin istehsal xərclərini ödəmək üçün kifayət qədər böyük məbləğdir. Dünya əhalisi 7,7 milyard nəfərdən çoxdur".

Göründüyü kimi, COVID-19 bəlasından qurtulmaq üçün xeyli zamana ehtiyac var. Buna görə də koronavirus üzərində təsirli olan digər effektiv vasitələrə, pandemiya şərtlərində yaşamağa, insan təmasını azaltmağa, maska taxmağa və gigiyena şərtlərinə ciddi əməl etməliyik.

### Pandemiyaya qarşı məqsədyönlü və operativ tədbirlər davam edir

Sadalanan qaydalara əməl etmək nəticəsində ölkəmizdə yaranan müsbət dinamika təqdirəlayiqdir. Hazırda yoluxma sayı kəskin azalaraq yüzdən aşağı həddə düşüb, virusdan ölüm halları azalıb, sağalanların sayı isə xeyli artıb.

Yeni tip koronavirusun Çindən dünyaya yayılmağa başladığı ilk zamandan etibarən Azərbaycanda bütün qüvvələr bu bəlaya qarşı səfərbər edilib. Dövlətin potensialı bu infeksiya ilə mübarizəyə yönəlib, mümkün effektiv və zəruri tədbirlər sistemli və planlı şəkildə həyata keçirilib.

Prezident İlham Əliyevin birbaşa rəhbərliyi və ciddi nəzarəti altında pandemiyaya qarşı həyata keçirilən məqsədyönlü və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa, sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verib, kütləvi yoluxmanın qarşısı alınıb.

Öncə ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırılıb, yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alınıb, diaqnostik alətlər, tibbi avadanlıq və ləvazimatlar, qoruyucu vasitələr vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verilib. Paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradılıb. Qısa müddətdə 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən "Yeni Klinika" koronavirus xəstələrinin ixtiyarına verilib.

Ardı 5-ci səh.

# Paşinyan Ermənistanı səfillər ölkəsinə çevirib

## İqtisadi vəziyyətin ağırlaşması miqrasiyanı daha da sürətləndirib

Son illərin sosial-iqtisadi mənzərəsinin təhlili Ermənistanda tənəzzülün artıq davamlı xarakter aldığını göstərir. Paşinyan iqtidarının yarıtmaz siyasəti pandemiya fonunda Ermənistanda iqtisadi böhranın daha da dərinləşməsinə gətirib çıxarır, xalqın hakimiyyətdən narazılığını günbəgün artırır.

Bu mənada son günlər hakimiyyət nümayəndələrinin populist çıxışları inandırıcı görünmür. Əksinə, hesab edilir ki, baş verənlər siyasi rəhbərliyin mövqeyinin zəifləməsinə, korrupsiya mexanizminin genişlənməsinə dəlalət edir.

Ermənistanda koronavirus pandemiyası səbəbindən getdikcə ağırlaşan vəziyyət hakimiyyət üçün əlavə problemlərə yol açmaqdadır. Bildirilir ki, Ermənistan iqtisadiyyatı pandemiyanın təsiri altında turizm gəlirlərindən məhrum olub, aşağı qiymətlərə görə dağ-mədən sənayesi xammalı ixracının və emiqrantların pul köçürmələrinin azalmasından boğulur.

Ermənistan iqtisadi tənəzzülün qarşısını almaq, xüsusilə də büdcə kəsirini bağlamaq və xarici ödənişlərini etmək üçün Beynəlxalq Valyuta Fondundan Stand-By krediti almaq məcburiyyətində qalıb. Kredit xətti Ermənistanın Beynəlxalq Valyuta Fondunda (BVF) olan 128 milyon SDR kvotasının 100 faizi həddindədir. COVID-19-a yoluxma səviyyəsinə görə dünyada ən pis vəziyyətdə olan ölkələrdən sayılan Ermənistanın fiskal kəsiri bu il ÜDM-in 5 faizinə, borc yükü isə ÜDM-in 64,1 faizinə çatacaq.

Ardı 5-ci səh.

# Azərbaycan-BP əməkdaşlığının perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb

Avqustun 11-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov ilə BP qrupunun baş icraçı direktoru Bernard Luni arasında telefon danışığı olub. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı əsnasında Azərbaycan ilə BP şirkəti arasında uzun illərdir davam edən səmərəli və qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələri yüksək qiymətləndirilib.

Söhbət zamanı ikitərəfli əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, bu əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

# Türkiyə Prezidenti Azərbaycanın Xarici İşlər və Müdafiə nazirlərini qəbul edib



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 11-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovu və Müdafiə naziri Zakir Həsənovu qəbul edib.

# Ankarada Azərbaycanın və Türkiyənin Xarici İşlər nazirlərinin görüşü keçirilib

Avqustun 11-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovun Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, təkbətək görüşdən sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibli görüş olub.

Nazir Mövlud Çavuşoğlu Ceyhun Bayramovu səmimi salamlayaraq, onunla Türkiyədə görüşməkdən məmnunluğunu ifadə edib.



Tərəflər ikitərəfli gündəlikdə duran bir çox sahələrdə, o cümlədən siyasi, iqtisadi, ticarət, humanitar, mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq bildirib və bu əlaqələrin daha da genişləndirilməsi perspektivlərini müzakirə ediblər. İki ölkə arasında mövcud əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda bundan sonra da davam etdiriləcəyindən əminlik ifadə olunub.

Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi sonuncu təxribatdan danışaraq Türkiyə dövlətinin hər zaman olduğu kimi Azərbaycanın haqq mövqeyinə nümayiş etdirdiyi dəstəyi məmnunluqla qeyd edib. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə də dövlətlərin suverenliyi, ərazi bütövlüyünə hörmət və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında həllinin vacibliyini vurğulayıb.

Görüşdən sonra Xarici İşlər nazirlərinin mətbuat üçün brifinqi keçirilib.

* * *

Səfər çərçivəsində Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Ankarada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri və Heydər Əliyev parkında Ulu Öndərin abidəsini ziyarət edib.

# *Ceyhun BAYRAMOV:* "Bölgədə sülhün təmin edilməsinə əsas maneə Ermənistanın təcavüzkar siyasətidir"

"Bu gün keçirdiyimiz görüşlərdə Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Bir millət iki dövlət" kəlamları əsasında möhkəm təmələ sahib olan Azərbaycan-Türkiyə əlaqələri hərtərəfli müzakirə edildi". AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov avqustun 11-də türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra keçirilən mətbuat konfransında bildirib.

Ceyhun Bayramov Azərbaycanın Xarici İşlər naziri olaraq ilk səfərini Türkiyəyə etməkdən məmnunluğunu ifadə edərək deyib: "Tarixi köklərə, qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticarət, humanitar, hərbi və digər sahələrdə uğurla inkişaf etdirilir. Etibarlı strateji tərəfdaşımız olan Türkiyə ilə münasibətlərin daha da dərinləşdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Bu əlaqələrin inkişafında Azərbaycan və Türkiyə prezidentlərinin şəxsi dostluq münasibətləri xüsusi önəm kəsb edir".

Nazir görüşdə, həmçinin regional inkişafa, sülhə, tərəqqiyə xidmət edən çoxsaylı layihələrlə bağlı müzakirələrin aparıldığını söyləyib. Bu layihələrin icrasının ölkələrimizin regional gücünü artırdığını, beynəlxalq mövqelərini möhkəmləndirdiyini bildirib.

Ceyhun Bayramov müzakirələrdə ölkələrimizin iştirakı ilə üçtərəfli və dördtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsinin aparıldığını diqqətə çatdırıb.

Azərbaycanın Xarici İşlər naziri deyib: "Qardaş Türkiyə hər zaman Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini dəstəkləyib və dəstəkləyir. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətindəki son təxribatı zamanı biz bir daha bu dəstəyin şahidi olduq. Bölgədə sülhün təmin edilməsinə əsas maneə Ermənistanın təcavüzkar siyasətidir. BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərar və qətnamələrində bu münaqişənin həlli yolları aydın şəkildə ifadə edilib. Azərbaycanın münaqişə ilə bağlı mövqeyi qətidir və dəyişməzdir. Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".

# *Mövlud ÇAVUŞOĞLU:* "Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı həll yolunu seçərsə, biz onun yanında olacağıq"

"Bildiyiniz kimi, iyulun 12-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Tovuz rayonu istiqamətində hərbi təxribat törətdi. Bir daha bildirmək istəyirəm ki, qardaş Azərbaycan tək deyil. Bütün imkanlarımızla, gücümüzlə qardaş Azərbaycanın yanındayıq və yanında olmağa davam edəcəyik".

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu avqustun 11-də azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra keçirilən mətbuat konfransında bildirib.

"Ermənistan illərdir qardaş Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq, Ermənistan münaqişənin həllindən yayınır. Ermənistan bu cür təxribatlarla danışıqların aparılması üçün təhlükəsiz şəraitin formalaşmasına mane olduğunu bütün dünyaya nümayiş etdirir. Beynəlxalq ictimaiyyət, həmçinin ATƏT-in Minsk qrupu da münaqişənin həllinə ciddi səy göstərmir. Biz bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normaları əsasında həllini dəstəkləyirik. Lakin qardaş Azərbaycan hansı həll yolunu seçərsə, biz o məsələdə də Azərbaycanın yanında olacağıq", - deyə Mövlud Çavuşoğlu vurğulayıb.

Nazir Azərbaycan və Türkiyənin birgə mühüm layihələr həyata keçirdiklərini xatırladaraq strateji layihələrlə bağlı fəaliyyətin daha da gücləndiriləcəyini söyləyib. Həmçinin elm, mədəniyyət sahələrində əməkdaşlığın daha da genişləndirilməsi üçün işlərin görüləcəyini vurğulayıb.

# Azərbaycan ilə Serbiya arasında siyasi və təhlükəsizlik məsələlərinə dair müzakirələr aparılıb

Serbiya Respublikasının Baş Nazirinin müavini, Milli Təhlükəsizlik Şurasının katibi, Daxili İşlər naziri Neboyşa Stefanoviç avqustun 10-da Azərbaycan Respublikasına səfərə gəlib. Səfər avqustun 12-dək davam edəcək.

AZƏRTAC xəbər verir ki, avqustun 11-də Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi Ramil Usubov və Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Neboyşa Stefanoviç ilə görüşüblər.



Görüşdə Azərbaycan-Serbiya münasibətlərinin hazırkı vəziyyəti müzakirə edilib, ölkələrimiz arasında siyasi və təhlükəsizlik sahələri daxil olmaqla müxtəlif istiqamətlərdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərinə və bu xüsusda gələcək birgə addımlara dair ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan və Serbiya prezidentlərinin müntəzəm siyasi dialoqu və dostluq əlaqələri xüsusi vurğulanıb, ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğu diqqətə çatdırılıb.

Azərbaycan ilə Serbiya arasında beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıqdan məmnunluğun ifadə olunduğu görüşdə xüsusilə dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinin dəstəklənməsinin vacibliyi qeyd olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycanın və Serbiyanın Daxili İşlər nazirlikləri arasında əlaqələr daha da inkişaf etdiriləcək

Avqustun 11-də Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Baş Nazirinin müavini, Milli Təhlükəsizlik Şurasının katibi, Daxili İşlər naziri Neboyşa Stefanoviç ilə görüşü keçirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Vilayət Eyvazov Azərbaycan ilə Serbiyanın strateji tərəfdaş olduğunu məmnunluqla vurğulayaraq ölkələrimiz arasındakı münasibətlərin belə səviyyəyə çatmasında iki ölkə rəhbərliyinin qarşılıqlı səfərləri, aparılan danışıqlar və imzalanan sənədlərin mühüm rolunu vurğulayıb. General-polkovnik Vilayət Eyvazov 2010-cu il mayın 13-də Bakıda imzalanmış "Azərbaycan Respublikasının Hökuməti ilə Serbiya Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"in, eləcə də ölkələrimizin polis hazırlayan təhsil müəssisələri arasında olan Anlaşma Memorandumunun iki ölkənin Daxili İşlər nazirlikləri arasında əlaqələrin qurulmasında mühüm əhəmiyyətini diqqətə çatdırıb.



Nazir daxili işlər orqanlarında həyata keçirilən islahatlar barədə qonağa məlumat verib, demokratik prinsiplərə söykənən, polisin fəaliyyətini tənzimləyən yeni qanunların qəbul olunduğunu, həmin qanunların icrasının xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Bu istiqamətdə mühüm dəyişikliklərdən birinin fəaliyyətin qabaqcıl dünya təcrübəsinə uyğun təkmilləşdirilməsi olduğunu deyən Daxili İşlər naziri son on ildə 8 minə yaxın əməkdaşın və hərbi qulluqçunun bir sıra beynəlxalq təşkilatların xətti ilə çoxsaylı təlim və treninqlərə cəlb edildiyini, bunun şəxsi heyətin peşəkarlığının, hazırlıq səviyyəsinin daha da yüksəldilməsinə müsbət təsir göstərdiyini qeyd edib. Vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi baxımından ən müasir informasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunduğu bildirilib.

Mövcud problemlərə toxunan Daxili İşlər naziri transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıq ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən Neboyşa Stefanoviç ölkələrimiz arasındakı əlaqələrin son illər bütün sahələrdə genişlənərək daha da dərinləşdiyini, oxşar münaqişələrdən əziyyət çəkən hər iki dövlətin bir sıra problemlərə dair beynəlxalq müstəvidə eyni mövqedən çıxış etdiyini, yaxın dost saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

# "The Korea Post" jurnalı Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı nailiyyətlərdən yazıb

Cənubi Koreyanın "The Korea Post Media" qrupuna aid eyniadlı jurnalın sonuncu (iyul) buraxılışında Azərbaycanla bağlı geniş məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, jurnalın üz qabığında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Koreya Respublikası Prezidenti Mun Ce-inin fotoşəkilləri verilib.







"Azərbaycan xalqı 102 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətini fəxrlə, haqlı olaraq təsis edib" adlı məqalədə müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, fəaliyyətindən, onun dövlətçilik tariximizdəki rolundan bəhs olunub.

Bildirilib ki, Xalq Cümhuriyyəti daxili və xarici çətinliklərə baxmayaraq, səmərəli dövlət təsisatları yarada, vətəndaşlarının hüquqlarını təmin edə, beynəlxalq birliyin etimadını qazana bilib. Qısa dövrdə parlamentdə qadınların seçki hüququnun təmin olunması haqqında qanun da daxil olmaqla 200-dən çox qanun qəbul edilib.

Təəssüflə vurğulanıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmayıb, 1920-ci ilin aprelində bolşevik işğalı nəticəsində cümhuriyyətin müstəqilliyinə son qoyulub və Azərbaycan təxminən 70 il ərzində keçmiş Sovet İttifaqının tərkibində olub.

Qeyd olunub ki, Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa edəndə Ermənistanın hərbi təcavüzü də daxil olmaqla, bir sıra çətinliklərlə üzləşmişdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dövlətçiliyi və müstəqilliyi qorunub. Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin liderliyi ilə müstəqil, suveren və demokratik ölkə kimi Azərbaycan sosial-iqtisadi və insan kapitalının inkişafı, beynəlxalq münasibətlərdə artan rolu və nüfuzu ilə Azərbaycan Xalq Cümhuriyyətinin arzu və ideallarını reallığa çevirir.



Məqalədə Azərbaycanın Prezident İlham Əliyevin liderliyi altında son illər qazandığı nailiyyətlərdən və beynəlxalq təşkilatların hesabatlarında bu uğurların əks olunmasından söz açılıb, əhalinin rifahının yaxşılaşması, infrastrukturun müasirləşdirilməsi istiqamətində görülən işlər sadalanıb. Məqalədə Ermənistanın hərbi təcavüzü və onun acı nəticələri, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən regional enerji və nəqliyyat layihələri, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, Azərbaycanın turizm potensialı barədə məlumat verilib.

Bundan başqa, məqalədə Azərbaycan ilə Cənubi Koreya arasında münasibətlərdən də ətraflı bəhs olunub.

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, №11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 99-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 9.2-3-cü və 9.2-4-cü maddələr əlavə edilsin:

“9.2-3. Qeyri-hökumət təşkilatlarının təsis sənədlərində edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliklərinin dövlət qeydiyyatı bu qanunun tələbləri nəzərə alınmaqla və gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə də həyata keçirilir.

9.2-4. Müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemində sənədlər gücləndirilmiş elektron imza ilə təsdiq olunur, sistemin iştirakçıları və istifadəçiləri öz fəaliyyətində həmin sistem vasitəsilə əldə edilən sənədlərdən istifadə edirlər. Həmin sistemdən əldə edilən sənədlər dövlət qurumlarına və şəxslərə kağız daşıyıcılarda, yaxud “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron qaydada təqdim oluna bilər.”

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 156-VIQD nömrəli Qanununun tətbiqi və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 156-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12, maddə 2614; 2019, № 2, maddə 211) aşağıdakı məzmunda 2.13-1-ci bənd əlavə edilsin:

“2.13-1. həmin qanunun 9.2-3-cü maddəsində və 9.2-4-cü maddəsinin birinci cümləsində “müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi” dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Fərdi elektron pəncərə” elektron məlumat sistemi nəzərdə tutulur;”

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 9.2-3-cü maddəsində və 9.2-4-cü maddəsinin birinci cümləsində, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun 16.2-1-ci, 16.2-2-ci və 24-3-cü maddələrində nəzərdə tutulmuş imkanların Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Fərdi elektron pəncərə” elektron məlumat sistemi vasitəsilə həyata keçirilməsini təmin etmək məqsədilə həmin sistemin proqram təminatında müasir texnoloji həllərin tətbiqi, o cümlədən məlumat bazasının optimallaşdırılması, habelə onun digər informasiya sistemləri ilə inteqrasiya imkanlarının genişləndirilməsi üçün zəruri məsələləri həll etsin;

2.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225; 2019, № 4, maddələr 570, 579, № 5, maddələr 796, 812, № 11, maddə 1686) aşağıdakı dəyişikliklər edilsin:

1. 15-2.1-ci maddənin birinci cümləsində “Azadlığın” sözü “İctimai işlər və azadlığın” sözləri ilə əvəz edilsin.

2. 15-2.4-cü maddəyə “onun” sözündən sonra “istifadəsinə verilir və ya” sözləri əlavə edilsin, həmin maddədə “və ya” sözləri “, habelə elektron nəzarət vasitəsi şəxsin üzərinə bağlandıqda” sözləri ilə əvəz edilsin.

3. 35.1-ci maddəyə “işləməli” sözündən sonra “, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada elektron nəzarət vasitəsindən istifadə etməli, elektron nəzarət vasitəsini ictimai işlərin yerinə yetirildiyi yerlərdə gəzdirməli, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməli” sözləri əlavə edilsin.

4. Aşağıdakı məzmunda 39.0.2-1-ci maddə əlavə edilsin:

“39.0.2-1. elektron nəzarət vasitəsini gəzdirməkdən imtina edənlər, onu zədələyənlər və ya digər üsulla yararsız vəziyyətə salanlar, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməyənlər;”

5. 51-7.6.2-ci, 178.5-ci, 178.7-ci, 182.2-ci və 182.5-ci maddələrə “ona xidmət” sözlərindən əvvəl “üzrsüz səbəbdən” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

## “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 146-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların Icrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 146-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611; 2002, № 8, maddə 478; 2008, № 3, maddələr 168, 170, № 7, maddə 618; 2011, № 4, maddə 279; 2013, № 8, maddə 893; 2016, № 4, maddə 676; 2018, № 3, maddə 353, № 5, maddə 962, № 6, maddə 1203, № 10, maddə 2003; 2019, № 4, maddə 626) 3.2-ci bəndinə “34.1,” rəqəmlərindən sonra “35.1,” rəqəmləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 35.1-ci maddəsinə uyğun olaraq ictimai işlər növündə cəza çəkən şəxslərin elektron nəzarət vasitəsindən istifadə etmə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

2.2. “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 146-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli, 1 may tarixli 69-VIQD nömrəli, 8 may tarixli 94-VIQD nömrəli, 2 iyun tarixli 124-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 28.3-1-ci maddə əlavə edilsin:

“28.3-1. Məhkəmə tərəfindən ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərin üzərinə həmin işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur.”.

2. 154.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“154.3. İcra məmuru:

154.3.1. barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin qeydiyyatını aparır, onlara tənbehin icrasının qayda və şərtlərini izah edir;

154.3.2. barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərə elektron nəzarət vasitəsini təqdim etməklə, həmin vasitəni ictimai işlərin yerinə yetirildiyi vaxtların cədvəlinə uyğun üzərlərində daşımalı, istifadə etməli olduqlarını, işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydalarını, habelə hər hansı müdaxilənin və ya elektron nəzarət vasitəsindən istifadədən imtina edilməsinin yolverilməzliyini izah edir və bu barədə protokol tərtib edir;

154.3.3. barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin davranışına, onların ictimai işlərin yerinə yetirilməli olduğu yerlərə vaxtında gəlmələrinə və həmin yerləri müəyyən olunmuş vaxtdan sonra tərk etmələrinə nəzarət edir;

154.3.4. barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin işləmiş olduğu vaxtın uçotunu aparır, ayda iki dəfədən az olmayaraq, şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkməklə protokol tərtib edir;

154.3.5. ictimai işlər növündə inzibati tənbehin bu məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi üçün digər tədbirləri görür.”.

3. Aşağıdakı məzmunda 156-1-ci maddə əlavə edilsin:

**“Maddə 156-1. İnzibati tənbeh tətbiq etmə zamanı elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətləri**

156-1.1. Barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərə elektron nəzarət vasitələri tətbiq edilir.

156-1.2. Elektron nəzarət vasitələrinin tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

156-1.3. Elektron nəzarət vasitələri tətbiq edilmiş şəxslərin müəyyən edilmiş vəzifələri yerinə yetirməsinə nəzarət icra məmurları tərəfindən həyata keçirilir.

156-1.4. Elektron nəzarət vasitələri tətbiq edilmiş şəxslərə elektron nəzarət vasitəsi təqdim olunur və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydaları, hər hansı müdaxilənin yolverilməzliyi, həmçinin bu əməlin hüquqi nəticələri izah edilir və bu barədə protokol tərtib edilir.

156-1.5. Elektron nəzarət vasitəsi tətbiq edilmiş şəxs həmin vasitəni zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, onun dəyəri həmin şəxsdən tutulur.”

4. 529-cu maddənin “Qeyd” hissəsinə aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etmək, onu zədələmək və ya digər üsulla yararsız vəziyyətə salmaq, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməmək;”

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 148-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 148-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli, 22 may tarixli 1039 nömrəli, 2 iyun tarixli 1049 nömrəli, 18 iyun tarixli 1068 nömrəli, 3 iyul tarixli 1083 nömrəli, 10 iyul tarixli 1100 və 1104 nömrəli fərmanları) 4.3-cü bəndinə “154.1-ci maddəsinin ikinci cümləsində,” sözlərindən sonra “156-1.2,” rəqəmləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 156-1.2-ci maddəsinə uyğun olaraq ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

2.2. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 148-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*

## “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 710; 2001, № 9, maddə 576, № 11, maddə 675; 2003, № 1, maddə 16; 2005, № 4, maddə 278, № 8, maddə 684, № 10, maddə 908; 2007, № 11, maddələr 1049, 1053; 2008, № 8, maddə 699; 2009, № 7, maddə 517, № 8, maddə 611; 2010, № 4, maddə 265; 2013, № 3, maddə 216; 2014, № 2, maddə 79, № 11, maddə 1359; 2018, № 6, maddə 1160, № 7 (I kitab), maddə 1405) aşağıdakı məzmunda 16.2-1-ci, 16.2-2-ci və 24-3-cü maddələr əlavə edilsin:

“16.2-1. Qeyri-hökumət təşkilatlarının təsis sənədlərində edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliklərinin elektron müraciət əsasında müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə dövlət qeydiyyatı “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

16.2-2. Qeyri-hökumət təşkilatlarının bank hesabları üzrə maliyyə əməliyyatlarının aparılması zamanı müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə əldə edilmiş sənədlərdən kağız daşıyıcılarda, yaxud “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron qaydada istifadə edilir.”;

**“Maddə 24-3. Qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və ianələr üzrə məlumatların təqdim edilməsinin elektron müraciət əsasında aparılması**

Qeyri-hökumət təşkilatları qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və qəbul etdikləri ianələr üzrə məlumatların təqdim edilməsinin müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə elektron qaydada həyata keçirilməsi üçün müraciət edə bilərlər.”

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

## “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli Qanununun tətbiqi və “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 oktyabr tarixli 401 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 oktyabr tarixli 401 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 716; 2009, № 12, maddə 988; 2010, № 11, maddə 966; 2013, № 7, maddə 808; 2014, № 7, maddə 819; 2015, № 5, maddə 529) 2.4-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.5-ci bənd əlavə edilsin:

“2.5. həmin qanunun 16.2-1-ci, 16.2-2-ci və 24-3-cü maddələrində “müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi” dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Fərdi elektron pəncərə” elektron məlumat sistemi nəzərdə tutulur.”

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2020-ci il*

◆ Milli maraqlar naminə əməkdaşlıq

# İslahatlar Azərbaycanı regionun ən güclü dövlətinə çevirib

## Teyyub QƏNİOĞLU: "Azərbaycan Təkamül Partiyası islahatların müsbət nəticələrini görür və onları təqdir edir"

*Əvvəli 1-ci səh.*

Biz Təkamül Partiyası olaraq qeyd edilən şöbənin rəhbəri cənab Ədalət Vəliyevin müxalifət partiyalarının sədrləri ilə ilkin, tanışlıq xarakterli görüşlərini müsbət qiymətləndiririk. Bu görüşləri iqtidar-müxalifət münasibətlərində yeni səhifənin açılması kimi qiymətləndirmək olar".

Teyyub Qənioğlu qeyd etdi ki, ATP ilk dəfə olaraq müxalifət nümayəndəsinin Milli Məclisin Sədrinin müavini vəzifəsinə, müxalifət nümayəndələrinin parlament komitələrinə sədr, sədr müavini vəzifələrinə təyin edilməsini təqdir edir və bunu siyasi sahədə aparılan islahatların davamı kimi qiymətləndirir. Eyni zamanda hesab edir ki, müxalifət nümayəndələrinin rəhbər orqanlara seçilməsi, təyin edilməsi təkcə Milli Məclis səviyyəsi ilə məhdudlaşmamalıdır.

### Tənqidlər konstruktiv olmalı, reallığa söykənməlidir

Teyyub Qənioğlu bildirdi ki, Təkamül Partiyası post-pandemiya dövründə iqtidar-müxalifət münasibətlərinin sivil formaya keçirilməsi istiqamətində başlanan hərəkatın davam edəcəyini və yeni, daha mütərəqqi formaya keçəcəyini gözləyir: "Cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş videokonfransda Prezident İlham Əliyevin "Mən hesab edirəm ki, siyasi islahatların aparılması bundan sonra da bizim imkanlarımızı daha da genişləndirəcək. Biz bu islahatların gözəl nəticələrini görürük. Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bizim kifayət qədər güclü siyasi iradəmiz var. Biz görürük ki, siyasi və iqtisadi islahatlar paralel aparılarkən, doğrudan da, böyük uğurlara imza ata bilərik" deməsi belə düşünməyə əsas verir".

Partiya sədri qeyd etdi ki, siyasi islahatların əhatə dairəsi, dərinliyi, ilk növbədə, iqtidardan, eyni zamanda müxalifət partiyalarının milli, dövlətçilik mənafelərinə sadiqlik dərəcəsindən də asılıdır: "Hesab edirik ki, müxalifət olaraq ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların müəyyən istiqamətlərini, bu sahədə həyata keçiri-



lən tədbirləri tənqid etmək olar və lazımdır. Ancaq tənqidlər konstruktiv olmalı, reallığa söykənməli, onların aradan qaldırılması üçün təkliflərlə müşahidə olunmalı, meydana çıxa biləcək çətinliklərdən sui-istifadə hallarına yol verilməməlidir. Bu vətən bizimdir, uğurları və uğursuzluqları ilə iqtidarlı-müxalifətli hamımızındır! Qeyd edilən müşavirədə cənab Prezident deyib: "Əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır". Hesab edirik ki, siyasi islahatların genişlənməsi və dərinləşməsi istiqamətində real addımların atılacağı təqdirdə qeyd edilən məqsədlərə nail olmaq mümkün olacaqdır".

Bu prosesdə ATP-nin irəli sürdüyü təşəbbüslərə gəldikdə, Teyyub Qənioğlu qeyd etdi ki, Təkamül Partiyası yarandığı gündən konstruktiv müxalifət mövqeyindədir, heç vaxt dövlətimizə, dövlətçiliyimizə, milli mənafelərimizə qarşı müxalif mövqedə olmayıb və bu siyasətini davam etdirir. "Təkamül Partiyası olaraq ölkəmizin həyatında baş verən bütün prosesləri daim diqqətlə izləyirik, baş verən proseslərə münasibətimizi bildiririk, uğurları təqdir edirik, çatışmazlıqların aradan qaldırılması istiqamətində düzgün hesab etdiyimiz təklifləri veririk".

Teyyub Qənioğlu dedi ki, sosial-iqtisadi sahələrdə aparılan islahatların müsbət nəticələrini görürük və onları təqdir edirik: "Ölkədə sosial-iqtisadi sahələrdə aparılan islahatların daha real olmasını, bu sahədə qəbul edilən proqramların, yol xəritələrinin reallığa söykənməsini, onların həyata keçirilməsinə nəzarətin gücləndirilməsini gözləyirik. Məsələn, məlumdur ki, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafı üçün Prezident İlham Əliyevin 7 yanvar 2013-cü ildə təsdiq etdiyi Sərəncamla "Azərbaycan-2020:Gələcəyə baxış" İnkişaf Konsepsiyası, 16 mart 2016-cı il tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin başlıca istiqamətləri"nin təsdiq edilməsi və bundan irəli gələn məsələlər haqqında Sərəncamı ilə 12 yol xəritəsi qəbul edilmişdir. 2020-ci il başa çatmaqdadır. Ancaq bu sənədlərin heç biri lazımınca yerinə yetirilməyib. Belə görünür ki, ölkədə real sosial-iqtisadi islahatların aparılmasında yalnız Prezident maraqlıdır! Fikrimizcə, sosial-iqtisadi sahələrdə real islahatların aparılması üçün, ilk növbədə, şüarçılıqdan uzaq, real proqramlar tərtib edilməli və onların həyata keçirilməsinə ciddi nəzarət edilməlidir.

### Bəzi partiyalar sivil mübarizə əvəzinə qarşıdurma yolunu seçiblər

Yeniləşən siyasi sistemdə müxalifətin iştirakı, rolu, funksiyası, fəaliyyəti barədə danışan partiya sədri dedi ki, bütün zamanlar üçün düzgün olan qərarlar qəbul etmək mümükün deyildir: "Zaman, şərait dəyişdikcə qəbul edilən qərarlarda, fəaliyyət istiqamətlərində uyğun dəyişikliklər edilməlidir, onlar təkmilləşdirilməlidir. Ona görə də müxalifət partiyalarının da fəaliyyətinin təkmilləşdirilməsinə, bu fəaliyyətin ölkədə mövcud olan reallığa uyğunlaşdırılmasına ehtiyac var. Müxalifət partiyaları öz fəaliyyətləri ilə ölkədə mövcud olan sosial-siyasi sabitliyin qorunmasına töhfə verməli, vətəndaş qarşıdurmasına yol aça biləcək hərəkətlərdən çəkinməli, öz fəaliyyətlərində yalnız qanunlara əməl etməli, bu sahədə müəyyən etdikləri çatışmazlıqları obyektiv mövqedən tənqid etməli, onların aradan qaldırılması üçün konstruktiv təkliflər verməlidirlər".

Qeyd olundu ki, müxalifət partiyalarının missiyalarından biri iqtidarın fəaliyyətində aşkar etdikləri yanlışlıqları tənqid etmək, bu yanlışlıqların aradan qaldırılması üçün özlərinin proqramlarını elan etmək və iqtidara gələcəkləri təqdirdə bu proqramları həyata keçirəcəklərini elan etməkdən ibarətdir və bu, bütün dünyada belədir: "Ancaq iqtidara qarşı bu mübarizə sivil qaydada, qanunlar çərçivəsində aparılmalı, qarşıdurmaya, zorakılığa, iğtişaşlara qətiyyən yol verilməməlidir. Təəssüf ki, radikal müxalifət mövqeyində duran bəzi partiyalar sivil mübarizə əvəzinə qarşıdurma yolunu seçiblər. Biz Təkamül Partiyası olaraq onların bu mövqeyini yanlış hesab edirik və nə qədər gec deyil, bu mövqedən çəkinməyə çağırırıq".

### Azərbaycan önləyici tədbirlər görən ölkələrdən birincisidir

Partiya sədri ilə pandemiyaya qarşı aparılan mübarizə tədbirləri barədə də söhbətləşdik. Onun sözlərinə görə, Azərbaycan koronavirusun yayılmasının qarşısının alınması üçün dünyada önləyici tədbir görən ölkələrdən biri və birincisidir. Bir çox ölkələr Azərbaycanın bu sahədə həyata keçirdiyi tədbirləri öyrənib tətbiq etdiklərini bəyan edirlər.

O da diqqətə çatdırıldı ki, həyata keçirilən islahatlar Azərbaycanımızı iqtisadi inkişaf səviyyəsinə görə regionumuzun ən güclü dövlətinə çevirmişdir və ölkəmiz dünyanın güclü dövlətləri sırasına daxil olmaqdadır: "Ancaq, Prezidentin də dediyi kimi, məmur özbaşınalığının, qanun pozuntularının, korrupsiya və rüşvətxorluğun geniş yayılması iqtisadi inkişaf yolumuzda əsas maneəyə çevrilmişdir. Belə halların qarşısının alınması, cinayət əməllərinə yol vermiş məmurların məsuliyyətə cəlb edilməsi istiqamətində son zamanlar həyata keçirilən tədbirlər təqdirəlayiqdir və bu istiqamətdə tədbirlər yəqin ki davam etdiriləcəkdir".

Teyyub Qənioğlu yekunda bildirdi ki, Prezident İlham Əliyev ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, islahatların genişləndirilməsi və dərinləşdirilməsi, bu sahədə olan çatışmazlıqların aradan qaldırılması üçün mütəmadi olaraq təşəbbüslərlə çıxış edir.

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İlham Əliyev qlobal böhran şəraitində də islahatlarını reallığa çevirir

## Prezidentin yenicə yaratdığı Azərbaycan İnvestisiya Holdinqi dövlət şirkətlərinin vahid prinsiplər əsasında idarə olunmasını təmin edəcək

*Əvvəli 1-ci səh.*

Həm pandemiya ilə mübarizə istiqamətində əldə edilən müsbət dinamika, həm də iqtisadiyyatın dayanıqlığının təmini üçün reallaşdırılan layihələrin, islahatların uğurlu nəticələri göstərir ki, Azərbaycan istənilən böhranla mübarizə aparmağa qadirdir.

Prezident İlham Əliyevin möhkəm təməl üzərində formalaşdırdığı yeni iqtisadi konsepsiya hətta böhran şəraitində belə sosial-iqtisadi və struktur islahatlarının həyata keçirilməsi üçün real imkanlar yaradır. Dövlət başçısının məhz böhran şəraitində reallaşdırdığı islahatlar çərçivəsində Azərbaycan İnvestisiya Holdinqinin yaradılması da bunun bariz nümunəsidir.

### Müasir çağırışlar fonunda iqtisadiyyatın liberallaşdırılması

Avqustun 6-da cənab İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı müşavirə keçirərək mövcud durumu dəyərləndirdi və qarşıdakı dövr üçün həyata keçiriləcək sosial-iqtisadi layihələrin icrası ilə bağlı ciddi tapşırıq və göstərişləri verdi.

Prezident həmçinin vurğuladı ki, müasir çağırışlar artıq, bütövlükdə, iqtisadiyyatın liberallaşdırılmasını labüd edir. Son vaxtlar bu sahədə aparılan müzakirələr də deməyə əsas verir ki, artıq ciddi addımların atılmasının vaxtı çatıb. Həmçinin özəlləşdirmə sahəsində daha geniş islahatlar aparılmalıdır.

Avqustun 7-də isə dövlət başçısı ölkəmizdə Azərbaycan İnvestisiya Holdinqinin (AİH) yaradılması ilə bağlı fərman imzaladı və publik hüquqi şəxs kimi fəaliyyət göstərəcək qurumun nizamnaməsi də təsdiq edildi.

Ümumiyyətlə, son 17 il ərzində cənab İlham Əliyevin həyata keçirdiyi davamlı struktur islahatları iqtisadiyyatın səmərəliliyinin daha da artırılması məqsədlərinə xidmət edib. Bu istiqamətdə ölkədə institusional və tənzimləyici çərçivə təkmilləşdirilib, milli iqtisadiyyatın özəyi olan təsərrüfat strukturlarında idarəetmənin sağlam prinsiplər əsasında inkişafı və tam şəffaflaşması üçün möhkəm zəmin yaradılıb.

Fərmanda qeyd edildiyi kimi, sözügedən islahatlar biznes mühitinin xeyli yaxşılaşmasını şərtləndirib. Həmçinin ölkədə sosial-iqtisadi infrastruktur inkişaf edib, yeni strateji mərhələnin çağırışlarına adekvat formada qurulan idarəetmənin çevikliyi artıb. Ötən müddətdə struktur islahatlarının əhəmiyyətini nəzərə alaraq dövlət xidmətləri və məhsul istehsalı sferasının da qabaqcıl prinsiplər əsasında idarə olunmasına xüsusi önəm verilib. Bu istiqamətdə ölkədə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, onların gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi üçün bir sıra işlər görülüb, paylarının nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin idarə olunmasının təkmilləşdirilməsi məqsədilə mühüm islahatlar həyata keçirilib.

Müasir dövrdə yalnız azad bazar münasibətlərinin hərtərəfli inkişafına, dayanıqlı özəl mülkiyyətin genişlənməsinə, daha sağlam prinsiplərə söykənən idarəçiliyə əsaslanmaqla iqtisadi inkişafı sürətləndirmək mümkündür. Buna görə də dövlətə məxsus müəssisələrin idarə olunması sisteminin təkmilləşdirilməsi, fəaliyyətinin səmərəliliyinin və şəffaflığının artırılması, xərclərini və risklərini optimallaşdırmaq yolu ilə onların tam sağlamlaşdırılması istiqamətində struktur islahatların dərinləşdirilməsi tələb olunur.

Cənab İlham Əliyevin yaratdığı İnvestisiya Holdinqi də məhz dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması məqsədlərinə xidmət edəcək.

### AİH-in yaradılması dövlət-özəl tərəfdaşlığının inkişafını stimullaşdıracaq

Bu gün Azərbaycan iqtisadiyyatında dövlət müəssisələrinin (DM) xüsusi çəkisi böyükdür. DM-in məşğulluqda payı təqribən 25 faizdir və 15 ən iri DM-in aktivlərinin həcmi ölkənin ÜDM ilə müqayisə edilə bilən səviyyədədir. Dövlət səhmdar olaraq DM-in müasirləşməsi, texnoloji yenilənməsi, kapitallaşması və maliyyə dayanıqlığını təmin edərək onların keyfiyyət və səmərəlilik baxımından yeni inkişaf səviyyəsinə keçidi üçün zəmin yaradıb.

Səmərəliliyin artırılması onların beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin güclənməsinə də səbəb olacaq. Azərbaycan DM-i xarici bazarlara çıxdıqca və ya xaricdə fəaliyyətlərini genişləndirdikcə rəqabət qabiliyyətliliyin önəmi daha da artacaq. Qəbul edilən qərarlar və həyata keçirilən tədbirlər DM-in ixrac potensiallarının artmasına töhfə verəcək.

Dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyi aydın, ölçülə bilən və şəffaf səmərəlilik göstəriciləri (KPİ) vasitəsilə müəyyən olunacaq. Azərbaycan İnvestisiya Holdinqi DM-in korporativ idarəetmə orqanlarında iştirak etməklə onların ölkəmizin iqtisadi qüdrətinin daha da artmasına töhfə verməsini təmin edəcək.

Dövlət müəssisələrinin əldə etdiyi mənfəət iqtisadiyyatın inkişafına yönəldiləcək, fəaliyyət göstərdikləri sahələrə özəl investisiyalar cəlb ediləcək, bu məqsədlə dövlət-özəl tərəfdaşlığının inkişafı stimullaşdırılacaq.

Həmçinin özəl sektorla dövlət müəssisələri arasında rəqabətin ədalətli və bərabər şərtlərlə aparılması təmin olunacaq. Bu qurumlar səmərəli fəaliyyət göstərməklə milli inkişaf hədəflərinə nail olunmasına xidmət edəcəklər. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsi məqsədilə innovasiyalar və rəqəmsallaşma daha geniş şəkildə tətbiq və təşviq olunacaq.

### AİH-in nizamnamə kapitalı 10 milyon manat olacaq

Azərbaycan İnvestisiya Holdinqinin nizamnamə kapitalı 10 milyon manat olacaq. Bu, qurumun nizamnaməsində də öz əksini tapıb. Sənəddə həmçinin deyilir ki, holdinqin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, ilkin mərhələdə fəaliyyətinin təşkili və saxlanılması xərclərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitdən, habelə fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan, qanunla qadağan olunmayan digər vəsaitdən formalaşacaq.

Holdinq öz əmlakından yalnız bu nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir, balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" ölkə Prezidentinin 6 iyun 2007-ci il tarixli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

Qurum qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra ozünün, idarə, filial və nümayəndəliklərinin, təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə olunmuş mənfəət üzərində müstəqil sərəncam vermək hüququna malikdir. Holdinqin mənfəəti bu nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Müşahidə Şurasının qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

### İqtisadi və korporativ idarəetmə daha da modernləşir

Göründüyü kimi, cənab İlham Əliyev qlobal böhran şəraitində həyata keçirdiyi struktur islahatları ilə iqtisadi və korporativ idarəetməni daha da modernləşdirir. Bu islahatlar, ilk növbədə, dövlət şirkətlərinin iş effektivliyini təmin edəcək. Bununla da daha vacib layihələr həyata keçiriləcək və bir o qədər əhəmiyyət daşımayan işlərə əlavə vəsaitlər və izafi xərclər sərf olunmayacaq. Eyni zamanda şirkətlər qarşılıqlı əməkdaşlıq şəraitində işlərini quracaqlar.

Prezidentin İqtisadi məsələlər üzrə köməkçisi Şahmar Mövsümovun da vurğuladığı kimi, AİH-in yaradılmasında məqsəd ölkə iqtisadiyyatında böyük bir hissə təşkil edən dövlət şirkətlərinin idarə olunmasıdır.

Şahmar Mövsümovun fikrincə, bu holdinq tərəfindən dövlət müəssisələrində müasir şərtlərə uyğun şəffaf idarəetmə sisteminin qurulması məqsəd kimi qoyulub. Bu, Azərbaycanda bir çox sahələrdə liberallaşma prosesinin sürətlənməsi deməkdir. Holdinqin yaradılması, idarəetmədə onun effektivliyinin artırılması, qeyri-neft sahələrinin səmərəli idarə olunması həmin sahələrin inkişafına təkan verəcək.

Bir sözlə, Azərbaycan İnvestisiya Holdinqinin yaradılması cənab İlham Əliyevin davamlı struktur islahatlarının növbəti uğuru kimi qiymətləndirilməlidir

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Proqnoz vermək çətin, uğura köklənmək isə vacibdir

Koronavirus pandemiyası ildırım sürəti ilə bütün dünyanın nizamını dəyişmiş və bəşəriyyət gözlənilməyən sınaqlarla üzləşmək məcburiyyətində qalmışdır. Hansısa qeyri-adi bir qüvvə bütün müdhişliyi ilə insanlığa qənim kəsilmişdir. Onun vurduğu aramsız zərbələr ölkələrin iqtisadiyyatını çökdürmüş, görünməmiş gərginliklər yaratmış, bəşəriyyət planetar miqyasda şok təsirlərə məruz qalmışdır.

Avqustun 6-da Prezident İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı keçirdiyi müşavirədə mövcud vəziyyətə toxunmuş, görülən işləri təhlil etmiş, belə mürəkkəb şəraitdə perspektivdə atılmalı zəruri addımlardan danışmışdır. Bildirilmişdir ki, pandemiyanın elan olunduğu ilk gündən indiyədək Azərbaycanda koronavirusa qarşı mübarizə müsbət dinamika istiqamətində aparılmışdır. Vaxtında görülən zəruri tədbirlər sayəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün olmuşdur. Bu gün sağalanların sayında yoluxanlara nisbətən yaranan müsbət dinamika belə qənaətə gəlməyə əsas verir ki, ölkədə koronavirus xəstəliyinin fəsadları mümkün minimuma enmişdir.

Dövlət başçısı bu işdə səhiyyə işçilərinin fəaliyyətinə yüksək dəyər vermişdir: "Həkimlərimizin çox böyük əməyi vardır. Məhz həkimlərin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanda bu xəstəlikdən ölənlərin sayı aşağı səviyyədədir. Bildiyiniz kimi, bu gün 46 xəstəxana ancaq koronavirus xəstələrinə xidmət göstərir. Onu da bildirməliyəm ki, bu 46 xəstəxananın 41-i son 17 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. Əgər biz vaxtında bu addımları atmasaydıq, bu gün çox böyük problemlərlə, faciəvi vəziyyətlə üz-üzə qala bilərdik".

Azərbaycan pandemiya ilə mübarizədə ölkə miqyasında görülən böyük işlərdən savayı, həm də beynəlxalq əlaqələr çərçivəsində Türkiyədən, Rusiyadan, Kubadan, İtaliyadan və Çindən gələn həkim briqadaları dəvət etmişdir. Bundan əlavə, ən qısa müddət ərzində Azərbaycanda koronavirusla birbaşa mübarizə üçün 10 mindən artıq çarpayı yeri hazırlanmış, 35 rayon və şəhərdə 46 xəstəxana bu istiqamətdə fəaliyyətə başlamışdır.

Bu gün ölkənin 19 rayon və şəhərində xəstəliyi cilovlamaq və bunun digər bölgələrə yayılmasının qarşısını almaq məqsədilə sərtləşdirilmiş karantin rejimi tətbiq olunur. Görülmüş tədbirlər nəticəsində aktiv xəstələrin sayı 8 min 651 nəfərdən 2,3 dəfə azalaraq 3 min 787 nəfərə enmişdir. Laboratoriyaların sayı isə 6-dan 31-ə çatdırılmış və bu hesaba 760 minə yaxın test aparılmışdır.

Məlum olduğu kimi, dövlət başçısı koronavirusla mübarizədə iştirak edən tibbi personala əməkhaqqının 3-5 misli qədər müddətli əlavələr verilməsini tapşırmışdır. Mart-iyun ayları ərzində 64 min 38 nəfər tibbi personala bu günə qədər 58 milyon 300 min manat ödəniş edilmişdir.

Görülmüş işlər, xəstəliyin cilovlanması və azalması sayəsində avqustun 5-dən bəzi yumşalma proseslərinə başlanmış, o cümlədən əvvəlki 16 şəhər və rayonun 3-ü - Lənkəran, Samux və Siyəzən rayonları bu zonadan kənarlaşdırılmışdır. Operativ Qərargah yaxın zamanlarda bir sıra yumşalma proseslərinə də hazırlıq işləri görür. Eyni zamanda əhalinin sosial müdafiəsi dörd istiqamətdə 12 tədbiri əhatə etmişdir. Demək olar ki, əhalinin yarısını, beş milyon insanı əhatə edən tədbirlər planı icra olunmaqdadır. Tədbirlər planının birinci istiqaməti əmək müqaviləsi ilə işləyən insanların məşğulluğunun qorunması və onun təmin edilməsi idi. Həm dövlət, həm də özəl sektorda çalışan 1 milyon 660 min insanın məşğulluğu davam etmiş, onların əməkhaqları, iş yerləri qorunub saxlanılmışdır. İşsiz və gəlirini itirən aztəminatlı qeyri-formal işləyən şəxslər üçün də bir sıra silsilə tədbirlər həyata keçirilmişdir.

Digər istiqamət işsiz və qeyri-formal işləyən şəxslər üçün yaradılan haqqı ödənilən ictimai işlər proqramı idi. Bu iş yerlərinin sayı da 90 minə qədər artırılmışdır. Onlardan 38 mini davamlı, 52 mini isə ikiaylıq iş yerləri idi. Bu proqram da uğurla icra olunur.

Dövlət başçısının tapşırığına əsasən, əlavə olaraq özünüməşğulluq proqramının genişləndirilməsinə başlanılmışdır. Bu proqrama Dünya Bankı, BMT-nin İnkişaf Proqramı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, yerli banklar qoşulmuşdur. Dövlət qurumlarından İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, "ASAN xidmət"in yanında ABAD, Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi çox geniş əhatə dairəsi yaradaraq kiçik və mikrosahibkarlığın, əhalinin məşğulluğunun təşkil edilməsi istiqamətində mühüm işlər görmüşlər.

Prezident İlham Əliyev yekun nitqində pandemiya ilə əlaqədar görülmüş işlərə, bütövlükdə, yüksək qiymət vermişdir: "Bir daha demək istəyirəm ki, bizim bu xəstəliklə bağlı əsas məqsədimiz insanların sağlamlığıdır. Bununla eyni əhəmiyyət daşıyan insanların sosial vəziyyətidir və biz bunu təmin edirik. Ondan sonra əhəmiyyət baxımından bizim iqtisadi vəziyyətimiz, iqtisadi inkişafımız, iqtisadiyyatın dayanıqlılığı və biznes dairələrinə göstərilən dəstək, postpandemiya dövrünə hazırlıq gəlir. Halbuki heç kim deyə bilməz ki, postpandemiya dövrü nə vaxt başlayacaq. Ümumiyyətlə, hesab edirəm ki, indi proqnoz verməyə heç kim cəsarət etməz. Ancaq hər halda biz buna da hazır olmalıyıq. Yeni fəaliyyətə başlayan biznes sahələri dövlətin dəstəyini nəzərə alaraq gərək artıq öz gələcək planlarını elə qursunlar ki, ölkənin ümumi iqtisadiyyatında canlanma daha da tez baş versin".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın neft-qaz strategiyası möhkəm dayaqlara əsaslanır

*Əvvəli 1-ci səh.*

Görülmüş işlərin mütləq əksəriyyəti Azərbaycan mütəxəssisləri, fəhlələri tərəfindən icra olunubdur".

Yeri gəlmişkən, qeyd edək ki, sözügedən dayaq blokunun inşa edildiyi BDÖZ vaxtilə məhz Ulu Öndər Heydər Əliyevin səyi və nüfuzu sayəsində tikilib. Mütəxəssislərin fikrincə, əgər bu müəssisə olmasaydı, hazırda ölkəmizdə həyata keçirilən neft-qaz layihələrinin hərəsi ən azı bir neçə il ləngiyə bilərdi. Bu gün zavodda 5 minə yaxın insan çalışır. Bu və digər layihələr üçün görülən işlər çox sayda insanların məşğulluğunu təmin edir. Onların orta aylıq əməkhaqqı təqribən 1200-1500 manat ətrafındadır.

Bu insanlar yüksək peşəkarlığa malik mütəxəssislər və ixtisaslı fəhlələrdir. Onlar dənizin 182 metr dərinliyində qərar tutacaq 190 metr hündürlüyündə dayaq blokunun hazırlanmasında da böyük ustalığa və səriştəyə malik olduqlarını göstərmişlər.

Növbəti mərhələlərdə Xəzərdə bu dayaq bloku üzərində stasionar dəniz özülünün üst hissəsi və göyərtə meydançası quraşdırılacaq. "Qarabağ" yatağından 2022-ci ilin sonlarında ilk karbohidrogenlərin hasil ediləcəyi gözlənilir. Bir sıra geoloji amillər deməyə əsas verir ki, burada 60 milyon tondan daha böyük həcmdə təbii ehtiyatlar var. Yataqdan ildə ən azı 1,5 milyon ton neft və



1,5-1,8 milyard kubmetr qaz hasil ediləcəyi nəzərdə tutulur.

Göründüyü kimi, 1994-cü ildən başlayaraq xarici neft şirkətlərinin Azərbaycanda böyük həcmdə sərmayə qoymalarına baxmayaraq, onların ölkəmizin neft-qaz sənayesinə və neft-qaz potensialına marağı azalmır, əksinə, artır. Odur ki, Prezident İlham Əliyev növbəti illərdə "Qarabağ"ın və digər yataqların da uğurla istismar ediləcəyinə və Azərbaycana böyük fayda verəcəyinə əminliyini bildirib.

Prezident həmçinin "Qarabağ" yatağının Azərbaycan xalqı üçün əziz olan, əzəli və əbədi yurdumuz Qarabağın adını daşımasının rəmzi məna kəsb etdiyini vurğulayaraq demişdir: "Əminəm ki, Azərbaycan öz doğma torpağına, Qarabağ torpağına qayıdacaq. Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# FHN düşmən ordusunun təxribatları nəticəsində Tovuzun yaşayış məntəqələrinə dəyən ziyanın aradan qaldırılması işlərinə başlayıb





Ermənistan silahlı qüvvələrinin cari ilin iyulunda iriçaplı silahlardan və ağır artilleriya qurğularından istifadə etməklə Tovuz rayonunu intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hər zaman xalqının yanında olan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu dəfə də vətəndaşlarımızın taleyinə dərhal xüsusi diqqət göstərdi. Avqustun 6-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, Tovuz rayonunu Ermənistan silahlı qüvvələrinin intensiv atəşə tutması nəticəsində rayonun Ağdam, Dondar Quşçu, Vahidli, Əlibəyli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Fövqəladə Hallar Nazirliyinə bir milyon manat məbləğində vəsait ayrıldı.

Sərəncamdan irəli gələn aidiyyəti məsələlərin icrası məqsədilə FHN tərəfindən dərhal müvafiq tədbirlərə başlanılıb. Belə ki, yuxarıda göstərilən yaşayış məntəqələrində, ilk növbədə, artilleriya atəşi nəticəsində qəzalı vəziyyətə düşmüş evlərin mütəxəssislərin rəyinə əsasən söküntüsünə, işlərin normal həyata keçirilməsinin təmin edilməsi üçün ərazinin təmizlənməsinə, habelə təmir-bərpa işlərinə başlanılıb. İşlərin qısa müddətdə tamamlanması nəzərdə tutulur və bu məqsədlə əraziyə kifayət qədər texnika və işçi qüvvəsi cəlb olunub.

Sakinlər göstərilən diqqət və qayğıya görə dövlət başçısına təşəkkürlərini bildirirlər.

# DSX: Azərbaycandan Gürcüstana keçmək istəyən 14 nəfər sərhəd pozucusu qismində saxlanılıb

Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin toxunulmazlığının təmin olunması istiqamətində tədbirləri uğurla davam etdirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, avqustun 10-da saat 03:05 radələrində "Şəmkir" sərhəd dəstəsinin Ağstafa rayonunun Sadıqlı kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində Azərbaycan Respublikasından Gürcüstan istiqamətində naməlum şəxslərin hərəkəti sərhəd naryadı tərəfindən aşkarlanıb.

Sərhəd zastavası dərhal "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən "Dayan!" əmri verilib. Nəticədə xidməti ərazidə hərəkətdə olan 14 nəfər şübhəli şəxs sərhəd pozucusu qismində saxlanılıb.

Saxlanılmış şəxslərin Ağstafa rayon sakinləri olmaları müəyyən edilib. Onlardan 7-si azyaşlı olması nəzərə alınaraq Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı yanında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya təhvil verilib.

Faktla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Yeni qaydalara uyğun təhlükəsiz alış-veriş imkanı yaradılıb

## İqtisadi fəaliyyəti sinxronlaşdırmaq üçün sanitar-epidemioloji tələblərə ciddi əməl edilməlidir

*Əvvəli 1-ci səh.*

Bölgələri də əhatə etməklə modul tipli xəstəxanalar quraşdırılıb.

Bütün bunlar sayəsində əldə olunan müsbət dinamika həm də evdə müalicə alan xəstələrin tibb müəssisələrinə yerləşdirilməsinə imkan yaradıb.

TƏBİB-dən bildirilib ki, bir müddət əvvəl yoluxma sayı artdığından simptomsuz və ya az simptomlu xəstələrin ev şəraitində müşahidə və müalicəsi aparılırdı. Lakin hazırda yoluxma sayı azaldığı üçün evdə müalicə alan xəstələrin istəyini və durumunu nəzərə alaraq xəstəxanaya yerləşdirilmələri həyata keçirilir.

### Qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb

Yoluxmanın azalması sərt karantin rejimindən yumşaldılmalara keçidi sürətləndirib. Avqust ayının 5-dən SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb.

Avqustun 10-dan isə iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə minib.

Müvafiq qərara əsasən, sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisində qeyd olunan tarixdən etibarən bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilib. İri ticarət mərkəzləri və mollardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb. Sərt karantin rejiminin yumşaldılması çərçivəsində bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilən məhdudiyyətlər də aradan götürülüb. Amma fəaliyyətinə icazə verilən obyektlər bir sıra vacib qaydalara əməl etməlidirlər.

Bakı şəhər İcra Hakimiyyətinin Ticarət Departamentindən bildirilib ki, hər nə qədər sərbəstlik verilsə də, mövcud vəziyyət nəzərə alınaraq həm fəaliyyətə başlayan obyektlər, həm də müştərilər müəyyən tələb və qaydalara mütləq şəkildə əməl etməlidirlər. Vətəndaşlardan, həmçinin obyekt sahiblərindən tələb olunur ki, ara məsafəsi gözlənilsin, gigiyenik qaydalara əməl olunması məqsədilə dezinfeksiyaedici məhlullardan, eyni zamanda hərarət ölçən cihazlardan istifadə edilsin.

Operativ Qərargah vətəndaşlara müraciət edərək bildirib ki, infeksiyanın yayılmasının qarşısının alınması tədbirləri ilə iqtisadi fəaliyyəti sinxronlaşdırmaq üçün sanitar-epidemioloji tələblərə ciddi əməl edilməlidir. Bu tələblərə əməl edilməsi iqtisadi fəaliyyəti davam etdirməyin və daha da genişləndirməyin yeganə üsuludur.

### Əldə etdiyimiz müsbət dinamikanı qorumağa çalışmalıyıq

Bu bir reallıqdır ki, koronavirusa qalib gəlmək dövlət və vətəndaş həmrəyliyinin əməli nəticəsidir. Aylardır hökumətimizin ölkədəki sanitar-epidemioloji vəziyyəti təhlil edərək verdiyi qərarlar, bu qərarlardan irəli gələn qaydalara vətəndaşlar tərəfindən əməl edilməsi də məhz hazırkı müsbət tendensiyaya zəmin yaradıb. Azərbaycan COVID-19-un yol açacağı ciddi fəsadlardan maksimum sığortalanıb. Amma yaddan çıxarmaq olmaz ki, pandemiya hələ bitməyib və yuxarıda da qeyd olunduğu kimi, vaksinin nə zaman hazırlanıb əlçatan olacağı məlum deyil. Buna görə də hər bir vətəndaş yüksək həssaslıq və məsuliyyət nümayiş etdirərək koronavirusla mübarizədə əldə edilən müsbət dinamikanı qorumağa çalışmalıdır. Heç kim yenidən sərt karantin rejiminə dönmək, hansısa məhdudiyyətlərlə üzləşmək istəmir. Əksinə, vətəndaşlar çox sürətlə ölkəmizin öz normal axarına qayıtmasını, qarşıdan gələn yeni dərs ilinin, hələ də fəaliyyətinə icazə verilməyən bir çox iş sahəsinin açılmasını arzulayır. Eyni zamanda səhiyyə sahəmizin yükünün azalması, iqtisadiyyatımızın pandemiyanın təsirlərindən minimum itkilərlə çıxması da qoyulan tələblərə əməl edilməsindən asılıdır. Bu tələblər isə çox sadədir: sosial məsafə, maskadan istifadə və gigiyena qaydalarına əməl etmək...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasından daha 214 nəfər sağalıb, 84 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 214 nəfər sağalıb, 84 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 33 min 731 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 30 min 856 nəfər müalicə olunaraq sağalıb, 495 nəfər vəfat edib. Aktiv xəstə sayı 2380 nəfərdir.

Ötən müddət ərzində 796 min 459 test aparılıb. Dünənki test sayı isə 6318-dir.

# Taktiki təlimlərin birinci mərhələsi Quru Qoşunları bölmələrinin iştirakı ilə davam edir





Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin birinci mərhələsi Quru Qoşunları bölmələrinin iştirakı ilə davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mərhələdə Quru Qoşunlarının bölmələri mürəkkəb taktiki elementləri məşq ediblər.

Bölmələr müasir döyüş vasitələrindən istifadə edərək şərti düşmən hücumunun dəf edilməsi tapşırıqlarını yerinə yetiriblər.

# Müdafiə Nazirliyi Azərbaycan Ordusunun yüksələn imicinə xələl gətirməyə yönələn yalan məlumatlara münasibət bildirib

Xaricdə məskunlaşaraq ölkəmizə düşmən mövqedə olan mənbələr, eləcə də Ermənistanın xüsusi xidmət orqanları tərəfindən maliyyələşdirilən, onlardan təlimat alan bəzi üzdəniraq şəxslər Azərbaycan Ordusunda uzun illər xidmət edən Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkova, eləcə də digər yüksək rütbəli zabitlərə qarşı qarayaxma kampaniyasının önündə gedirlər. Bu şəxslərin əsas məqsədləri Azərbaycan Ordusunun yüksələn imicinə xələl gətirməyə yönələn yalanlar uydurmaqdır.

Bunu AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

Qeyd olunub ki, onların bu yaxınlarda keçirilən əməliyyat müşavirəsində guya "Baş Qərargah rəisinin türkiyəli hərbi qulluqçuların birgə təlimlərə gəlməsi ilə bağlı təhqiramiz ifadələr işlətməsi" barədə iddiaları yalandır, növbəti iftiradır, heç bir həqiqətə uyğun deyil. Həmin müşavirədə qeyd olunan iddialarla bağlı heç bir fikir səsləndirilməyib, yalnız xidməti məsələlər müzakirə edilib.

Bu cür çirkin üsullarla Azərbaycan Ordusuna və hərbi qulluqçularımıza qarşı addımlar atan, qərəzli yazılar dərc edənlərin başlıca niyyətləri işğalçı Ermənistanın maraqlarına xidmət etməkdir. Amma həmin məkirli dairələr və onların ortaya atdığı ünsürlər bilsinlər ki, heç zaman çirkin niyyətlərinə nail ola bilməyəcəklər.

"Biz həmin şəxslər tərəfindən səsləndirilən qərəzli fikirləri qəti surətdə rədd edirik. Bildiririk ki, belə dezinformasiya xarakterli məlumatların məhz bu gün - Azərbaycan-Türkiyə birgə taktiki təlimlərinin keçirildiyi ərəfədə yayılması Ermənistanın xüsusi xidmət orqanları tərəfindən ölkəmizə qarşı həyata keçirilən növbəti təxribatın tərkib hissəsidir", - deyə qeyd olunub.

# Paşinyan Ermənistanı səfillər ölkəsinə çevirib

*Əvvəli 1-ci səh.*

Ermənistanda istehlakın iqtisadi artıma təsiri əsas kapitalın iqtisadi artıma təsirindən 11 dəfə və xalis ixracın iqtisadi artıma təsirindən isə 88 dəfə çoxdur. 2019-cu ildə Ermənistanda ev təsərrüfatlarına verilən kreditlər 32 faiz və xaricdən pul köçürmələri isə 1,5 faiz artıb. İstehlak əsaslı iqtisadi artım isə ölkənin milli və iqtisadi təhlükəsizliyini daim kənardan asılı vəziyyətə salır, iqtisadiyyatın immunitetini zəiflədir, erməni dramının volatilliyini yüksəldir və cəmiyyətdə qeyri-bərabərlik yaradır.

Bu gün rəsmi göstəricilərə əsasən, Ermənistanın hər 4 vətəndaşından biri yoxsulluq həddindən aşağıda yaşayır. "İravnuk" qəzeti yazır ki, aprel-iyul aylarında Ermənistan əmək bazarı 22 mindən çox iş yerini itirib. Bunlardan təqribən 12000-ə yaxını aprel ayında bağlanıb, may ayında isə 9000-dək iş yeri açılmayıb. Bu, Paşinyanın söyləmək istəmədiyi həqiqətdir. Bunun əvəzinə, hökumət "taxtın süqutundan" sonra iqtisadiyyatın yenidən açılması barədə qərarın öz nəticəsini verdiyi barədə təsəvvür yaratmağa çalışır.

Bildirilir ki, Ermənistanda əksər ailələr uşaqlarını ağır şəraitdə böyüdürlər. Çünki ailənin üzvləri işsizdir. Onların ümidi yalnız cüzi pensiyayadır. Belə ağır şəraitdə yaşayan uşaqlar sağlam olmurlar. Uşaqların normal geyimləri olmadığı üçün məktəbə də gedə bilmirlər. Ailələrin aylıq gəliri 40 min dramı keçmir. Həmin məbləğ isə bir nəfərin yaşaması üçün belə kifayət deyil.

Vurğulanır ki, Ermənistanda belə ailələrin sayı gündən-günə artır. Son bir ildə yoxsulluq səviyyəsi kəskin şəkildə yüksəlib. Əhalinin 47 faizi ya evsizdir, ya da şəraitsiz mənzillərdə yaşayır. Hökumət isə bu problemlərin həllində acizdir. Ermənistanda tikinti sektorunda illərdir durğunluq hökm sürür.

Ermənistanda iqtisadi vəziyyətin ağırlaşması miqrasiyanı daha da sürətləndirəcək. İşğalçı ölkədə xalis miqrasiya dərəcəsi (immiqrantlarla emiqrantlar arasındakı fərq) hər min nəfərə mənfi işarə ilə 5,6-dır. Bu da Ermənistanda emiqrantların sayının immiqrantlardan hər 1000 nəfər üçün 5,6 dəfə çox olduğunu göstərir. Ermənistanda emiqrantların yaşı isə 15-65 arası dəyişir. Bu onu göstərir ki, həm gənclər, həm də yaşlılar üçün, yəni, daha geniş yaş spektrində olan vətəndaşlar üçün Ermənistanda yaşamaq və işləmək imkanları daha aşağıdır. Ermənistandan gedənlərə - emiqrantlara həm şəhər, həm də kənd yerlərində rast gəlinir. Digər bir fakt isə erməni emiqrantların daha çox qadın olmasıdır. Asiya İnkişaf Bankının araşdırmasına əsasən MDB ölkələri arasında yalnız Ermənistan bu göstərici ilə fərqlənir. Bu da faktiki olaraq ölkənin demoqrafik artımına mənfi təsir göstərir.

"4rd.am" saytı yazır ki, bu vəziyyət bir qədər də davam edərsə, Ermənistanda daha böyük iqtisadi böhran və miqrasiya dalğası yaşanacaq: "İlin əvvəlindən başlayaraq Ermənistan iqtisadiyyatı üçün risklər olacağı gözlənilirdi. Cari ilin may, iyun və iyul aylarında Rusiyadan Ermənistana olan pul transfertləri ötən ilin eyni dövrü ilə müqayisədə analoji olaraq 1,2, 6,4 və 3,9 faiz azalıb. Deməli, Ermənistan iqtisadiyyatını ağır aylar gözləyir. Pul transfertləri kəsilsə, ermənilər üçün yaşamaq ağır olacaq".

Bütün bunlar ondan xəbər verir ki, Ermənistanı qarşıdakı dövrdə daha böyük böhran gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin ATM-lərə təmir və proqram təminatı xidməti ilə təmin edilməsi üzrə

***açıq tender elan edir***

Tender 1 LOT üzrə keçirilir.

| | |
|---|---|
| LOT 1 | ATM-lərə təmir və proqram təminatı xidməti |

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi

LOT 1 300 manat

məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kod: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir);*
- *Millikart tərəfindən ATM proqram təminatının MasterCard və VİSA beynəlxalq ödəniş sistemlərinə windows 7 əməliyyat sistemi üzrə sertifikasiya keçilməsi barədə təsdiq sənədi.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 01 sentyabr 2020-ci il saat 15:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 09 sentyabr 2020-ci il saat 18:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 10 sentyabr 2020-ci il saat 11:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü, tel: +99412-493-56-00, faks: +99412-493-00-37.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən təhsil müəssisələri üçün fizika, kimya və biologiya kabinetləri üçün mobil rəqəmsal laboratoriya avadanlığı dəstlərinin satın alınması ilə əlaqədar elan olunmuş tender proseduru podratçının müraciəti əsasında ilkin tələb olunan sənədlərin Portal vasitəsilə qəbulu vaxtı 13.08.2020-ci il saat 10:54-dək, tender təklifi və bank təminatı sənədlərinin qəbulu 21.08.2020-ci il saat 10:00-dək uzadılmışdır. İddiaçıların təklifləri 24.08.2020-ci il saat 10:54-də açılacaqdır.

***Tender komissiyası***

## “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - Xətt təsərrüfatında istifadə olunacaq abunəci qutularının satın alınması.**

**LOT 2 - GPON eskizlərinin tikintisi və istismarı üçün tələb olunan dəmir dirəklərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 üzrə 200 ( iki yüz ) manat (ƏDV daxil)**

**LOT 2 üzrə 500 ( beş yüz ) manat (ƏDV daxil)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına “ASAN ödəniş” portalı ilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **02 sentyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **10 sentyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **11 sentyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

## Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu elmi əsərlərin optimal müddətə və sərfəli qiymətə nəşri və çapının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

LOT- 1. Elmi əsərlərin nəşrinin və çapının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender. gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət və müqavilənin vaxtında yerinə yetirilməsi.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək lazımdır.

Əlaqələndirici şəxs - Tofiq Nəcəfli.

Ünvan: Bakı şəhəri, H.Cavid pr., 125, Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutu

E-mail: tofignajafli@gmail.com

Telefon: 012 539-36-15.

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba 200 (iki yüz) manat məbləğdə vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu

**Bank rekvizitləri:**
**DXA**
**VÖEN: 1401555071**
**H/h: AZ93CTRE00000000000004138407**
**VÖEN: 1300532601**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T - CTREAZ 22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 60 (altmış ) bank günü çox olmalıdır);*
- *malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər.*

Bu sənədlərə aşağıdakılar daxildir:

- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
- *malgöndərənin (podratçının) ixtisas göstəricilərinə aid məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb edilən sənədlərdə və formalarda təqdim olunmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
- *Dövlət Sosial Müdafiə Fonduna borcu olub-olmaması barədə arayış;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri 11 sentyabr 2020-ci il saat 15.00-a kimi tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini 21 sentyabr 2020-ci il saat 15:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri 22 sentyabr 2020-ci il saat 15:00-da elektron Portal vasitəsilə açılacaqdır.

**QEYD** - tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsi aşağıdakı işlərin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

Daxili İşlər Nazirliyinin Tibb İdarəsinə bilavasitə tabe olan A.N.Heydərov adına Respublika hospitalında olan havalandırma sistemlərində yaranmış nasazlığın aradan qaldırılması

Maraqlanan təşkilatlar **(012) 562-83-15** nömrəli telefonla əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusu **17 avqust 2020-ci il saat 15:00-da keçiriləcəkdir.**

İştirak etmək üçün sənədlər **14 avqust 2020-ci il saat 17:00-dək** qəbul olunur.

Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsi Lənkəran şəhəri 7 nömrəli 1176 şagird yerlik tam orta məktəbin bərpa-gücləndirmə və əsaslı təmiri işlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 20 avqust 2020-ci il saat 18:00-a kimi qəbul olunur. Zərflərin açılışı 21 avqust 2020-ci il saat 15:00-da Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanında,Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin akt zalında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Sirac Əliyev, tel: (012) 465-73-48 (daxili: 110).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 16 may 2020-ci il tarixdə “Gəncə şəhərində Kiçik və Orta Biznesin İnkişafı Mərkəzinin fəaliyyətə başlaması üçün təşkilati işlərin görülməsi, mərkəzdə KOB-lara təlim və seminarların keçirilməsi, habelə məsləhət və dəstək xidmətlərinin satın alınması” ilə əlaqədar elektron satınalma vasitəsilə keçirilmiş açıq tenderin davamından “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.2-ci və 27.5-ci maddələrinə əsasən imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən “Azərbaycan” qəzetinin 09 iyul 2020-ci il tarixli nömrəsində inventarların satın alınması ilə əlaqədar dərc edilmiş açıq tenderin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən davamından imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 21.05.2020-ci il tarixli sayında dərc edilmiş “25 ədəd velosipedlərin satın alınması” prosedurunun qalibi “TOUCHESS” MMC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “TOUCHESS” MMC arasında 07.08.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 19 iyun 2020-ci il tarixli 115 (8432) saylı buraxılışında dərc olunmuş Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması” ilə bağlı açıq tender elanında tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı 19 avqust 2020-ci il saat 15:00-dək, tender təklifinin təqdim edilməsinin son tarixi və vaxtı 27 avqust 2020-ci il saat 17:00-dək, zərflərin açılış tarixi və vaxtı 28 avqust 2020-ci il saat 15:00-dək uzadılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 21.05.2020-ci il tarixli sayında dərc edilmiş “5 ədəd avtonəqliyyat vasitəsinin satın alınması” prosedurunun qalibi “XƏZƏR AUTO” MMC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “XƏZƏR AUTO” MMC arasında 07.08.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən e-tender.gov.az saytında 16.03.2020-ci il tarixdə elan edilmiş “Kondisioner təmiri” işlərinin kotirovka prosedurunun qalibi “AZERİN TRADE” MMC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “AZERİN TRADE” MMC arasında 07.08.2020-ci il tarixdə kotirovka müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən e-tender.gov.az saytında 17.03.2020-ci il tarixdə elan edilmiş “Möhür üçün ehtiyat hissələri” işlərinin kotirovka prosedurunun qalibi “İnci Group of Companies” QSC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “İnci Group of Companies” QSC arasında 06.08.2020-ci il tarixdə kotirovka müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Mehdi, Rza, Mircəfər və Mircəlil İsmayılovlar, İlham və Tural İbrahimovlar, Vəli və Rafiq Hüseynovlar ailələri ilə birlikdə Hacı Araz Kərimova əzizi

**ÖZBƏK AĞA OĞLU KƏRİMOVUN**

Cəlilabad rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7263
Sifariş 1911
Qiyməti 40 qəpik